# Antiterror əməliyyatı zamanı şəhid olmuş lənkəranlı hərbçilərin xatirəsi anılıb




Ötən ilin sentyabrında lokal xarakterli antiterror əməliyyatı zamanı şəhid olan lənkəranlı hərbçilərin - Aqil Əkbərov, Vüqar Heydərov, Mirmusa Hüseynzadə və Məhəmməd Hüseynovun xatirələri anılıb.

Şəhidlərin Xolmili, Boladi, Viyən kənd və İstisu qəsəbə qəbiristanlıqlarındakı məzarları ziyarət olunub, ruhlarına dualar oxunub. Şəhər rəhbərliyi şəhidlərin ailə üzvləri ilə söhbət edib, qayğı və problemləri ilə maraqlanıb, dövlətin hər zaman onların yanlarında olduğunu vurğulayıb. Şəhidlərin yaxınları hər cür düqqət və dəstəyə görə minnətdarlıqlarını bildiriblər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 22 sentyabr (№207).- S.5.